# Azərbaycanın Yaxın Şərq regionunda mövqeləri güclənir

## Ölkəmizin BƏƏ ilə tərəfdaşlığının yeni mərhələyə daxil olması da bunu təsdiqləyir

**Prezident İlham Əliyevin uzaqgörən, müdrik, eləcə də qətiyyətli siyasəti nəticəsində Azərbaycan tək regionda deyil, qlobal miqyasda güclü dövlətə, siyasi və iqtisadi sahələrdə öndə gedən lider bir ölkəyə çevrilib. Xüsusilə, Vətən müharibəsində qazandığımız tarixi Zəfərdən sonra Azərbaycanla strateji tərəfdaş ölkələrin sayı artmaqdadır.**



Bakı Dövlət Universitetinin kafedra müdiri, professor Kamilə Əliyeva qəzetimizə açıqlamasında bildirib ki, Azərbaycan hər zaman dövlətlərlə müstəqil, bərabərtərəfli formatda əlaqələrin qurulmasının tərəfdarı olduğunu sübut edib. Bu baxımdan Azərbaycanla Birləşmiş Ərəb Əmirlikləri arasında əlaqələr dostluq, qardaşlıq təməli üzərində qurulub. "Ötən il Azərbaycanla BƏƏ arasında imzalanmış strateji tərəfdaşlıq sənədi bu əlaqələri daha da genişləndirib. 2025-ci il sentyabrın 16-da BƏƏ-nin Prezidentinin Şuşaya səfəri bu ölkənin suverenliyimizə göstərdiyi dəstəyin bariz nümunəsidir. Prezident İlham Əliyevin BƏƏ-yə budəfəki işgüzar səfəri və bu ölkənin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanla görüşü iki dövlət arasında mövcud strateji tərəfdaşlığın yeni mərhələyə qədəm qoymasının göstəricisidir. Ölkə rəhbərimizin də qeyd etdiyi kimi, Azərbaycan və BƏƏ hər zaman bütün beynəlxalq platformalarda bir-birini dəstəkləyir", - deyə o əlavə edib.

Ekspert qeyd edib ki, bu səfərin ən diqqətçəkən və qürurverici məqamlarından biri də Şeyx Zayed Fondunun təsis etdiyi və beynəlxalq miqyasda humanist dəyərlərin təşviqinə xidmət edən "Zayed İnsan Qardaşlığı Mükafatı"nın 2026-cı il üzrə Azərbaycan Prezidenti İlham Əliyevə təqdim olunmasıdır. Bu, dövlət başçımıza regionda sülhün, əmin-amanlığın bərqərar olması istiqamətində gördüyü misilsiz xidmətlərinə görə verilən böyük dəyərdir. Dövlətimizin başçısının BƏƏ-yə səfəri çərçivəsində "Sülh Qalxanı - 2026" adı altında birgə hərbi təlimlərin keçirilməsi hərbi sahədə də əməkdaşlığımızın inkişafından xəbər verir.

K.Əliyeva vurğulayıb ki, Azərbaycanla BƏƏ arasında iqtisadi əlaqələr də hər il artmaqdadır: "Qarşılıqlı sərmayə yatırımları yüksəlir. İki dövlət arasında ticarət dövriyyəsi 2 milyard ABŞ dolları səviyyəsinə çatıb. İl ərzində ticarət dövriyyəsinin bu qədər yüksəlməsi perspektivdə bu sahənin müsbət istiqamətdə inkişaf etməsinə əminlik yaradır. Azərbaycanla BƏƏ arasında enerji təhlükəsizliyi, nəqliyyat-logistika marşrutları, həmçinin humanitar sahələrin inkişafını xüsusi vurğulamaq lazımdır. Prezident İlham Əliyevin BƏƏ-yə səfəri bu ölkə ilə yanaşı, Azərbaycanın Yaxın Şərq regionunda iqtisadi-siyasi əlaqələrinin inkişafına və möhkəmlənməsinə böyük təkan verəcək".

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Azərbaycan. - 2026.- 7 fevral (№24).- S.11.